Ədəbiyyat qəzeti
xüsusi buraxılış
20 22 may 2021-ci il



Hüseynbala MİRƏLƏMOV

*Sabir Rüstəmxanlının 75 yaşı yaşanmış dolğun, mənalı bir ömrün zirvə maqamıdır. O, bir ömür boyunca bu zirvəyə doğru ləyaqətlə irəliləyib. Sabir müəllim özümüzdən böyük sözümüzün yazarıdır, sözün haqqını qoruyan böyük şair, böyük nasir, böyük tarixçi, dilçi, ictimai-siyasi xadim və ən əsası, böyük vətəndaşdır.*

*Mən Sabir Rüstəmxanlını qan yaddaşımızın oyanmasında, türk təfəkkürünün, türklük ruhunun qorunmasında böyük xidməti olan fikir adamı hesab edirəm. Müstəqilliyimizin qazanılması, xalqın milli şüurunun yetkinləşməsində Sabir Rüstəmxanlının xidməti danılmazdır. Biz Milli Məclisdə uzun illər birlikdə çalışmışıq, Sabir müəllimin alovlu nitqi, cəsarətli çıxışları, bütün hallarda dövlətçilik amilini ön planda tutmaq əzmi onu digərlərindən fərqləndirən əsas amil olub. Bu amil onun poeziyasında da ehtiva olunur, nəsrində də. Sabir Rüstəmxanlının romanları nəsrimizdə tarixi mövzuya olan ehtiyacı doldurmaqla bərabər, ona müasir ölçülərdən yanaşmağın da səviyyəsini meydana qoyur. Onun xüsusilə, "Şair və şər" romanını böyük şairimiz Məhəmməd Hadinin faciəli həyatına və nakam obrazına qoyulan abidə hesab etmək olar. Bütün bunlar öz yerində. Sabir Rüstəmxanlı həm də gözəl publisistdir. Onun ana dili təəssübkeşliyi, Cənub ədəbiyyatının problemlərini ən çətin dövrlərdə belə gündəmə gətirməsi, sovet epoxasının senzurasına baxmayaraq, milli hədəfləri nişan alaraq qələmini ən kəskin mövzularda sınaması bu gün də qürur doğurası faktlardır. Bu çıxış və yazılar olmasaydı ədəbiyyatımız olduqca kasad görünərdi.*

*Akademik Milli Dram Teatrında, Gənc Tamaşaçılar Teatrında mənim əsərlərimə oynanılan tamaşalarda Sabir Rüstəmxanlı daim iştirak edib, fikir və düşüncələrini, tamaşa ilə bağlı təəssüratlarını bölüşüb və etiraf edim ki, bu iştirak məni hər zaman qürurlandırıb. Böyük ziyalımızı təbrik edir, ona sönməyən yaradıcılıq ruhu, cansağlığı arzulayıram.*